
Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
MƏDƏNİ
HƏYAT
7 * 2014

# Kuklalar görünəndə...

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Respublika Təhsil Nazirliyi və Bakı Şəhər Təhsil İdarəsinin tabeçiliyində olan uşaq və gənclər yaradıcılıq mərkəzləri arasında Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunan "Dünyanın mədəniyyət rəngləri" adlı tədbir keçirdi.

Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və məsuliyyətli, mənəvi qüvvə tələb edən bir işdir. Planetimizin əhalisinin üçdə birini təşkil edən uşaqlarımızın necə tərbiyə olunmasından, hansı ideyalara qulluq etməsindən hər bir ölkənin gələcəyi asılıdır.

Buna görə də onlara diqqət və qayğı hər zaman göstərilməli, onların problemlərinin həllinə dövlət səviyyəsində nəzarət edilməlidir. Ulu öndərimiz Heydər Əliyev xalqımızın sabahını - gənc nəsli yaşatmaq, uşaqlar arasında fərqli həyat səviyyəsini yaxşılaşdırmaq üçün xarici ölkələrin diqqətini respublikamıza yönəltmişdir. Bu gün ölkəmizdə uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması üçün böyük işlər görülür.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik... Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu, sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz".

Sabahımız olan uşaqların mənəvi cəhətdən daha da zənginləşməsində məktəbdənkənar müəssisələrin fəaliyyətini xüsusi qeyd etmək istərdik. Çünki təhsil sistemi yalnız uşaq və yeniyetmələrin savad almasını, biliklərə yiyələnməsini əhatə etmir, həm də onların şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur.

Bu sistemə isə uşaqların fəaliyyətinin bütün istiqamətləri, o cümlədən asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkili də daxil edilir. Uşaqlara bütün sahələrdə göstərilən qayğı bir amala, bir məqsədə ünvanlanmalıdır: cəmiyyət üçün layiqli, faydalı insan böyütmək!

Bu gün dövlətimizin uşaqlara göstərdiyi diqqət və qayğı göz qabağındadır. Ölkəmizdə uşaqların sağlam böyümələri, onların hərtərəfli inkişafı üçün Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən mühüm qərar və sərəncamlar verilir.

Heydər Əliyev Fondu tərəfindən məktəblərin, uşaq evləri və bağçalarının inşası, onların yenidən müasir tələblərə uyğun şəkildə qurulması, həmçinin digər sahələrdə görülən işlər, gerçəkləşdirilən layihələr, proqramlar özünün uğurlu nəticələri ilə hamıda böyük sevinc və razılıq hissi oyatmışdır.

Uşaq dünyası... Nağıllar aləminin qoynunda uyuyan, dünyanın pisliklərindən uzaq, divlərin, şeytanların da bir gün dəyişəcəyinə inanan və bir kiçik oyuncaq ilə qəlbini ovutmaq mümkün olan tər-təmiz varlıqlar...

Sirli-sehrli aləmlərlə dolu olan uşaq dünyası həm də mənəvi saflığı, paklığı, özünəməxsusluğu ilə seçilir. Oyuncaqlar uşaqların intellektual qabiliyyətindən xəbər verir, onların maraq və fantaziyasını genişləndirir. Uşaq dünyası oyuncaqlardır. Bütün bunları nəzərə alaraq uşaqların daha cox sevdikləri bir məkan - Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası "Dünyanın mədəniyyət rəngləri" adlı gözəl bir tədbiri ərsəyə gətirdi.

Kuklalar görünəndə həmişə bayram olur; təkcə uşaqlara yox, həm də böyüklərə. Kuklalar vasitəsilə hazırlanmış tamaşalar uşaqlara xeyirxahlığı, yaxşılaları dəyərləndirməyi və sevməyi öyrədir. "Dünyanın mədəniyyət rəngləri" adlanan tədbiri keçirməkdə əsas məqsəd Biomüxtəliflik günündə təbii məhsullarla hazırlanmış kuklalarla hamıya bayram ovqatı yaşatmaq, insanlara təbəssüm, xeyirxahlıqla, nəciblikIə aşılanmış əyləncə bəxş etmək, mərasim üçün seçilmiş gözəl məkanı nağıllar aləminin sehrli, zümrüd güşəsinə çevirmək idi.

Məhz uşaqların gözü ilə ətraf mühitlə bağlı prob-



lemlərin nə dərəcədə önəmli olduğunu kuklaların timsalında nümayiş etdirmək gələcəyimiz olan uşaqların sağlamlığının müdafiə olunması, bu sahədə maariflənməsi baxımından həyata keçirilən çox gözəl ideyadır.

Yarışmada Təhsil Nazirliyinin və Bakı Şəhər Təhsil İdarəsinin tabeçiliyində olan Nəsimi, Sabunçu, Yasamal, Səbail, Binəqədi, Xətai, Nərimanov, Qaradağ, Xəzər, Suraxanı, Pirallahı və Nizami rayonlarının uşaq və gənclər yaradıcılıq mərkəzləri iştirak edirdi.

İştirakçılar Türkiyə, Böyük Britaniya, Hindistan, Gürcüstan, Özbəkistan, İran, İspaniya, Rusiya, İtaliya, Tatarıstan (Rusiya Federasiyası), Yunanıstan və Hollandiyanın mədəniyyəti ilə bağlı görüntüləri, milli kuklalarını, milli paltar və rəqslərini təqdim etdilər.

Yarışma 5 nominasiya üzrə nəzərdə tutulmuşdu:

- Təmsil olunan dövlət haqqında təqdimat-slaydların (video və ya foto) hazırlanması;
- Milli rəqs;
- Milli geyim (seçilən dövlətlərə mənsub kuklalara);
- Milli kuklanın hazırlanması;
- Şirma nağıl.

Yarışmanın açılışı C.Hacıyev adına 3 saylı musiqi məktəbinin xor kollektivinin ifasında uşaq himni ilə başladı (sözləri İsmayıl Dadaşov, musiqisi Səyavuş Kərimi). Tədbir ssenari üzrə davam etdi. Mərasimdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının rəhbəri Firudin Qurbanov çıxış etdi.

O, nitqində tarixin bizim üçün necə önəmli olmasından, uşaqlar arasında aparılan belə işlərin onların dünyagörüşünün artmasında, tolerantlıq hisslərinin güclənməsində rolundan danışdı. YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Hervord çıxışında qeyd etdi ki, belə layihələrin reallaşdırılması həqiqətən də onu daha çox sevindirir. O, gələcəyimiz olan uşaqların sağlam, hərtərəfli böyüməmələri üçün keçirilən tədbirə görə mədəniyyət və turizm nazirliyinə, kitabxana işçilərinə öz dərin minnətdarlığını bildirdi.

Mərasim iştirakçılarının 3 nominasiya üzrə əl işlərinə (kuklaların hazırlanması, şirma nağılın təqdimatı və milli geyimin güzgün seçilməsi) Muğam Mərkəzinin foyesində, 2 nominasiya üzrə isə (çarxlı video və ya foto slaydın nümayişi, milli rəqsin təqdimatı) zalda qiymət verildi. Ən yüksək nəticə 5 bal olmaqla dəyərləndirildi.

Yarışmanın yekun konserti, qaliblərin mükafatlandırılması Beynəlxalq Muğam Mərkəzində keçirildi. "Tamaşaçı rəğbəti" nominasiyasının qalibi Nəsimi rayon Çingiz Mustafayev adına 25 saylı Uşaq Yaradıcılıq Mərkəzi oldu. Nominasiya qalibinə diplom və hədiyyəni təqdim etmək üçün səhnəyə Bakı Şəhər Təhsil İdarəsinin nümayəndəsi Rövşən Əliyev dəvət olundu.

Yekun mərhələsində onlar türk rəqsini oynadılar. Azərbaycanın Türkiyədəki səfirliyinin müşaviri Əhməd bəy uşaqları təbrik etdi, onlara uğurlar dilədi. Yarışmanın əsas nominasiyalarından biri olan "Milli kukla"nın qalibi Səbail rayon 20 saylı Uşaq Yaradıcılıq Mərkəzinin üzvləri oldu. Nominasiya qalibinə diplom və hədiyyəni təqdim etmək üçün səhnəyə arxitektor, rəssam, Azərbaycan kuklaçılarının koordinatoru Pərviz Hüseynov dəvət olundu.

Onlar da yekun konsertdə gürcü rəqsi ilə çıxış etdilər. "Kuklalara milli geyimin düzgün seçilməsi" nominasiyasının qalibi 26 saylı Binəqədi Rayon Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin üzvləri oldu. Nominasiya qalibinə diplom və hədiyyəni təqdim etmək üçün səhnəyə Azərbaycan xalq rəssamı Arif Hüseynov dəvət olundu. Onlar özbək rəqsi ilə yekun konsertinə əlvan rəng qatdılar. "Şirma nağıl" nominasiyasının qalibi Qaradağ rayonu 33 saylı Uşaq Yaradıcılıq Mərkəzinin üzvləri oldu.

Nominasiya qalibinə diplom və hədiyyəni təqdim etmək üçün səhnəyə uşaqların sevimli yazıçısı Reyhan Yusifqızı dəvət olundu. "Çarxlı video və ya foto slaydın hazırlanması" nominasiyasının qalibi 24 saylı Yasamal Rayon Uşaq Yaradıcılıq Mərkəzinin üzvləri oldu. Onlar yekun konsert proqramında hind rəqsi ilə çıxış etdilər. Nominasiya qalibinə diplom və hədiyyəni təqdim etmək üçün səhnəyə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi VEB texnologiyaları şöbəsinin sektor müdiri Knyaz Yaqubov dəvət olundu. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin xüsusi hədiyyəsi (notbuk) Pirallahı rayon 29 saylı UYM-nin üzvlərinə verildi.

Təmsil olunan dövlətin "Milli rəqs" nominasiyasının qalibi 28 saylı Xəzər Uşaq Yaradıcılıq Mərkəzinin üzvləri oldu. Nominasiya qalibinə diplom və hədiyyəni təqdim etmək üçün səhnəyə Respublika Xoreoqrafiya Akademiyasının əməkdaşı, sənətşünas Gülşən Xanım Kəngərli dəvət olundu. Bütün nominasiya qaliblərinə diplom və video kamera hədiyyə edildi.

141 balla yarışmanın qalibi Nizami Rayon Uşaq Yaradıcılıq Mərkəzi oldu. Zalda monitorda münsiflərin verdiklər qiymətlər, yekun qiymətlərinin cədvəli göründü. Hər bir iştirakçı nəticələrlə tanış oldu. Qalib komanda kubok və kompüter dəsti qazandı.

Yarışmada fəal iştirak etdiklərinə görə Sabunçu rayon 47 saylı məktəbdənkənar iş mərkəzi, Xətai rayon 22 saylı UYM, Nərimanov rayon 21 saylı UYM, Pirallahı rayon 29 saylı UYM, Suraxanı rayon 32 saylı UYM-nin bütün iştirakçılarına diplom və hədiyyələr verildi. Həmçinin, onlara F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən təsis edilən "Göy qurşağı" jurnalı, kitab və məktəb ləvazimatı hədiyyə olundu.

Tədbir iştirakçıları "Heydər Əliyev və uşaqlar", "22 may - Biomüxtəliflik günüdür", "Biz birlikdəyik" adlı video çarxlı slaydlara baxdılar.

Yekun konsertdə isə Nizami Rayon Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin "Azəri inciləri" rəqs kollektivi Azərbaycan ritmləri və holland rəqsi ilə çıxış etdilər.

**Tədbir KİV nümayəndələri tərəfindən işıqlandırıldı. Mərasimin sonunda xatirə şəkilləri çəkildi.**

● **Zahirə DADAŞOVA,**
*layihənin rəhbəri*

